

İbrahim İBRAHİMLİ

# KÜÇƏLƏRİN İRREALLIĞI

*(bir pərdəli, üç şəkilli pantomim pyes)*

**İştirakçılar:**

Birinci küçə
İkinci küçə
A küçəsi
B küçəsi
Orta yaşlı qadın və gənc xanım
Gənc qız və sair

**1-ci şəkil**

Böyük şəhərin yaxşı, sakit bir yerində küçələr. Dörd küçə. Onlar bir nöqtədə kəsişirlər və böyük şəhərin də gur yerinə yaxın küçələrdi. Ətrafında bir neçə çox da hündür olmayan bina var. Bu küçələrdən nə çox adamlar, nə də ki çox maşınlar keçir. Birinci küçənin sol tərəfində təhsil məkanı mövcuddur, həmin məkan da hündür bir şəkildə hasara alınıb, bu səbəbdən də küçədən o məkanın içi yaxşı görünmür. Küçələrin hər tərəfində səkilər var.Təsvir etdiyimiz bu küçələr günlü gündə çox da hündür omayan binalara görə o qədər də günəşli olmur, yalnız o küçələrin şəhərin mərkəzinə tərəf olan istiqaməti günəşli olur və bunula belə, həmin küçələrin o biri istiqaməti, aşağı tərəfi küçələrin böyük şəhərin mərkəzinə tərəf olan hissəsindən fərqlənir, yəni həmin küçələrin aşağı tərəfi tamamilə kölgəlikdir.

***Birinci küçə*** (düz istiqamətli bir xətlə bu küçəyə diqqət yetirəndə istər-istəməz anlayırsan ki, barəsində söhbət açdığımız küçənin mövcudluq məntiqi elədi ki, o, istənilən reallığın, mövcudluğun prinsiplərinə uyğunlaşmağı bacarar).

***İkinci küçə*** (bu küçəyə müəyyənlik anlayışının imkanları ilə münasibət göstərəndə şəxsi varlığından ötrü yəqinləşdirirsən ki, onun mahiyyəti mütləq xarakterli müxtəlifliklər və ya mütləq universallıqdı).

***A küçəsi*** (qeyd edilən küçənin reallığını kənardan müşahidə edəndə görürsən ki, onun reallığı reallıqdan kənar müstəsnalığın müfəssəlliyidi).

***B küçəsi*** (bu küçənin reallığını yaşayanda varlığında belə fikirləşirsən ki,həmin küçə içinə qapalıdı, yəni onun mahiyyətinə varanda aşkarlayırsan ki,onun alt qatı var və o alt qatında gizlənən mahiyyətdə belədi; mənim mütləqliyim nəinki bu küçənin, hətta dünyanın məntiqidi və dünyanın reallığını qətiyyən onsuz təsəvvür etmək mümkün deyil).

***Birinci küçə*** (barəsində söhbət apardığımız küçə o anda günəşin şüalarının təsiriynən varlığının yəqinliyində asudə bir formada qərarlaşmış kimi görünür).

***İkinci küçə*** (o məkanın reallığında olanlarda, yəni mahiyyətindəki, anlayışlarda ötəri heç bir məna olmadığını sezdiyindən, belə düşünürsən ki, həmin küçə qeyd edilən reallıqda şəxsi varlığının deyil, ümumilikdə dünyanın fərqli reallığını yaşadır).

***A küçəsi*** (bu küçənin görünüşündə bir qaydasızlıq var, bu qaydasızlığa görə də ona diqqət yetirəndə elə zənn edirsən ki, o, indiki anda dünyanın xaotik modelin ifadə etməkdədir).

***Maşın*** (bir mersedes haqqında söhbət açdığımız küçələrin birləşdiyi yerdən keçir, aşağı sürətlə. Onun belə hərəkət etməsindən belə bir məqamı fikirləşirsən ki: Vallah, küçədən keçən mersedes maşını sakitliyin elə bir məqamını ifadə edir ki, o ifadəyə yalnız yəqinliyin ən cəlbedici tərəfi kimi münasibət göstərmək olar).

***B küçəsi*** (bu küçənin düzxətli görünüşündə onun hansısa reallığı inkar etmək məqamını nə müşahidə etmək, nə də hiss etmək olur, məhz buna görə də elə zənn edirsən ki, həmin küçə o anda mahiyyətinin reallığında mənfi nəsə olduğuna görə mahiyyətini bu böyük şəhərin reallığından gizlədir ki, varlığında dünya ilə onun arasında bərabərsizlik yaradan hansısa mənfi məqam görünməsin).

***Birinci küçə*** (bu küçəyə təyinlik anlayışının imkanları ilə yanaşanda müəyyən etməyə nail olursan ki, qeyd edilən küçə mənbəyini elə bir mütləqlikdən alır ki, hələ o mütləqliyin forması mövcud dünyamıza məlum deyil).

***İkinci küçə*** (həmin məkanda varlığında olanlarla və olmayanlarla mövcuddur və bu mövcudluqda da mənfi nəsə müşahidə edilmir, bu səbəbdən də onun barəsində adam elə fikirləşir ki, o, həmin məkanın və ətrafın reallığını tam mənada mükəmməl şəkildə təyin edən bir anlayışdır).

Orta yaşlı qadın və gənc xanım(həmin məkanda səki ilə o iki şəxs binalara tərəf gedir, onların gedişindən bir məqamı təyin etmək mümkündü, yəni onlar o sərbəst yerişləri ilə demək istəyirlər ki,məhz indiki anda həmin küçələrin varlığında istənilən anlayışa mükəmməl mənada mühüm yer tapmaq mümkündür).

***A küçəsi*** (bu küçəyə müəyyən qədər diqqət yetirəndə belə bir fikrə düşürsən ki, əslində barəsində söhbət açdığımız küçənin başlanğıcı bu dünyanın məxsusi mütləqliyinin başlanğıcıdır).

***B küçəsi*** (bu küçənin əsas şəhər yoluna çıxan istiqamətinə baxanda belə bir duyğunu yaşayırsan ki, həmin küçənin mahiyyəti dünyanın irreallığını bütün anlayışlara mövcudluq traektoriyası kimi qəbul etdirir).

***Kölgə*** (qeyd edilən küçələrin ətrafındakı binalar günün qarşısını kəsdiyindən həmin küçələrin birləşdiyi yer və birləşdiyi yerdən müəyyən qədər o tərəfləri kölgəlikdi, xüsusi olaraq bildirim ki, həmin anda o kölgəyə diqqət yetirilsə, müəyyən etmək olar ki, o anlayışın həmin küçədəki reallığı dünyasızlığın əksinin müəyyənliyinə meyillənməkdədir).

Küçələrin ümumi görünüşü (barəsində söhbət açdığımız küçələrə ümumi fonda diqqət göstərilsə, o halda görərik ki, həmin küçələrin ümumi görünüşünü bir mahiyyət əhatə edir. Yəni o küçələrin indiki andakı reallığı belədi ki, əgər həmin küçələrdə yerisən, o küçələr səni bütün zamanlarda mövcud olmaq reallığına aparıb çıxaracaq).

**2-ci şəkil**

Küçələrin bayaqkı görünüşü. Küçələrdə sakitlikdir, asfaltın içindəki xırda daşlar günəşin şüalarında cüzi olsa da, parıltı yaradır, əgər küçələrin kənarındakı səkilərdə ağaclar əkilməsəydi, bu parlaqlıq daha çox olardı, ağacların kölgəsi o parlaqlığın yaratdığı fonun mütləq mənada parlamasına imkan yaratmırdı, yəni kölgə olmasaydı, asfaltdakı xırda daşlar günəşin şüalarının təsirindən müəyyən qədər də canlı xarakterə malik bir anlayış kimi görünərdi, bununla belə, deyim ki, həmin parıltı çox olmasa da, həmin küçələrin ümumi fonu elə də yeknəsək

deyil, düzünü qeyd edim ki, həmin küçələrin səliqəli, təmiz olması adamda o məkan haqqında mənfi fikirlərin yaranmasının qarşısını alır. Yəni o fona xüsusi diqqət yetirəndə görürsən ki, o küçələrin ətrafındakı binalar, evlər arxitektura baxımından zövqlə tikildiyindən adamda xoş duyğular yaradır.

***Birinci küçə*** (bu küçəni bir az maili şəkildə müşahidə edəndə belə bir nəticəyə gəlirsən ki, barəsində danışdığımız küçə qətiyyən mahiyyətsiz bir reallığın mənfi xarakterli realsızlığının varlığı kimi yaşamaqdan tamamilə kənardadı).

***İkinci küçə*** (qeyd edilən küçənin reallığına varanda təxmin edə bilirsən ki, həmin küçə elə indicə mahiyyətsiz reallıqdan aralanıb).

***A küçəsi*** (mövcudluğunda bir realsızlıq duyulur, yəni onun reallığı elə bir mərhələnin səviyyəsindədir ki, həmin mərhələnin mahiyyətində hansısa müəyyənlik təyin etmək olmaz).

***B küçəsi*** (bu küçənin real müəyyənliyinin bütünlüyünə nəzər yetirəndə müəyyən edirsən ki, onun mahiyyətsizliyində də mütləq xarakterli mahiyyət var).

***Birinci küçə*** (o bir küçə kimi onun varlığında olan mükəmməllik elə bir mərhələdədi ki, həmin mükəmməlliyin imkanı ilə mərhələsizlikdə də yaxşı mənalı mövcudluq mərhələsi yaratmaq olar).

***İkinci küçə*** (onun görünüşündə bir anlayışsızlıq var və həmin anlayışsızlıq da mümkünlük anlamının mövcud olma imkanında hansısa bir reallıq anlayışı kimi real deyil).

***A küçəsi*** (bu küçəyə müəyyənlik anlayışının prizmasından baxanda belə zənn edirsən ki, onun təyin etmə bucağı bu dünyanın ən mühüm mövcudluq mərhələsidi).

***B küçəsi*** (əgər bu küçənin hazırkı durumuna bir reallıq kimi nəzər yetirsək, o halda görərik ki, həmin küçənin mövcudluğundakı həyat əhəmiyyətli görünüşü müstəsna xarakterli olmaqda qalmaqdadır).

***Birinci küçə*** (əgər bizlər bu küçənin reallığına sərbəst şəkildə yanaşsaq, o halda belə bir nəticəyə gələrik ki, həmin küçənin varlığında nə müdaxilə ediləsi mənfilik, nə də ki müdaxilə ediləsi müsbət xarakterli anlam var).

***İkinci küçə*** (aşkarca görünür ki, bu küçənin reallığında bir məqam mövcuddur, həmin məqam da belə mahiyyətə malikdir, yəni o anda günəşin şüaları İkinci küçənin varlığına elə sirayət edib ki, o istəsə də, istəməsə də, həmin məkanın deyil, atmosferdə, səmada olan reallığın guşənişin mahiyyətini yaşayır).

***Maşın*** (küçənin tən ortasından "Cip"markalı maşın keçir, maşın dörd yolun kəsişdiyi yerdən keçdiyindən çox ehtiyatla idarə olunur, onun o cür ehtiyatlı idarə olunmasından hiss edirsən ki, küçədə yaşanan həmin hərəkət məqamı hansısa təsir anının əsas cəhəti deyil, ötəri xüsusiliyin xarakteridi).

***A küçəsi*** (qeyd edilən küçənin mövcudluğunda bir hissizliyin məyyənliyi var, məhz o müəyyənlikdən hiss edirsən ki, həmin o hissizliyin müəyyənliyi hansısa anlayışdan, ya da ki nədən ötrüsə müəyyənləşmədiyindən qeyd edilən məkanda ümumi fona daxil olmağı bacarmır).

***B küçəsi*** (barəsində söhbət açdığımız küçənin hazırkı reallığı elə bir tarazsızlıq məqamındadı ki, həmin mütləqsiz tarazsızlığın mahiyyəti bildirilən məkandakı mütləq mərhələsinə bir mövcudluq kimi daxil olmağı reallaşdıra bilmir).

***Gənc xanım*** (küçədən keçən o gənc, yaraşıqlı xanımın yerişinə diqqət yetirərkən müşahidə edirik ki, o, keçdiyi küçənin varlığında hansı mütləq reallığın olmasının qətiyyən fərqində deyil, yəni gənc xanım həmin anda küçənin müxtəlifliyindəki mühümlüyə və xarakterli mahiyyətin yaşamına tam laqeyddir).

***Birinci küçə*** (onun reallığı çox sakit bir görkəmdədir,onun bu görünüşündən təxminən belə bir fikir hasil etmək olar ki, o, həmin durumda güclü bir yağış istəyir və ona görə yağış istəmir ki, hava istidi, o səbəbdən istəyir ki, yağış yağanda səmavi anlayışlarla mükəmməl əlaqə qurub heç olmasa müəyyən qədər səmavi anlayışların mütləq üsullardakı səmavi reallıqlarını yaşasın).

***İkinci küçə*** (varlığındakı reallığında hansısa bir realsızlığa meyillilik var, yəni onun həmin meyilliliyində olan hərəkətsiz mənfilikdən sezirsən ki, o küçənin indiki andakı mövcudluğu müdaxiləsiz reallığın nəticəsidi).

***A küçəsi*** (mövcudluğunda bir durğunluq hiss olunur və həmin durğunluğun mahiyyətidə istənilən anlayışın reallığı ola bilər,məhz bu reallığa görə də onun qeyd edilən mövcudluqdakı mütləqliyi mütləqliyin abstrakt təmayülləri kimi dəyərləndirilməlidir).

***B küçəsi*** (mövcudluğunda və həmin mövcudluğun bütöv məsafəsində günəşin şüalarının labüdlüyündə təmas reallığı olduğundan fikirləşirsən ki, o küçə mənfi reallıqların mühümlüyünü qəbul etmədiyindən reallığını günəşin bu dünyaya aid edilən müəyyənləşməsində və ya onun mahiyyətinin müəyyənliyində tapıb).

***Kölgə*** (günəşin şüalarının qarşısını binalar kəsdiyinə görə yaranmış kölgə artıq küçələri daha çox əhatə edib, məhz bu maraqlı əhatə etməsindən də görünür ki, o məkandakı reallığın əhatə dairəsi yalnız mükəmməlliyin irreal rasionallığıdı).

***Küçələrin ümumi görünüşü*** (o dörd küçənin həmin reallıqdakı ümumi görünüşü elə bir reallıqdı ki, onları müşahidə edəndə belə nəticə çıxarırsan ki, həmin anda o məkandakı bütün küçələr istənilən zaman anlayışının hətta varolmasızlığında da mütləq mənada var ola bilərlər).

**3-cü şəkil**

Əvvəlki şəkillərdə gördüyünüz küçələr. Bu şəkildə kölgə həmin küçələrin çox hissəsini əhatə edib. Küçələrdə sakitlikdir. Günəşin düşdüyü yerlər nisbətən azalıb, küçələrin reallığına diqqət yetirəndə hiss edirsən ki, o məkanda olan müxtəlif anlayışlar, yəni nisbətən hündür binalar böyük ağaclar və sairələr barəsində söhbət apardığımız küçələrin darıxdırıcı bir görkəmdə olmasına şərait yaratmır, yəni o məkanda diqqət yetiriləsi anlayışların çox olmasını təmin edir, həm də o ətrafda görünənlərin reallığındakı müxtəlif anlayışların bir-birinə uyğun olmasına diqqəti yönəldir və bu uyğunluğun reallığının mütləqliyin mövcudluğu olduğunu aşkar şəkildə sərgiləyir. Məhz bu xüsusi bir reallığa görə də qeyd edilən həmin məkandakı mövcudluğun reallığından kənarda olmayan küçələrdə yaranmış bu fon da müsbət mənada diqqəti çox cəlb edən bir reallıq kimi görünür, yəni həmin küçələrin görüntüsü tam mənada sünilikdən kənardadır, o küçələrin mahiyyətində adiliyə aid olan bir anlayış da mövcud deyil.

***Birinci küçə*** (bu küçənin reallığı yaxşı mənada cəlbedicidir və həmin küçələrdə qeyd edilən cəlbediciliyi yaradan da mütləq xarakterli bir anlayışdı, yəni həmin anda dünyanın bütün mütləq mənalı reallığının barəsində söhbət açdığımız küçədən keçib şimal-qərb istiqamətinə getməsindədir).

***İkinci küçə*** (qeyd edilən küçənin reallığı elə bir naməlumluqdadı ki, həmin reallığa diqqət yetirəndə istər-istəməz belə zənn edirsən ki, həmin məkana aid olan bütün anlayışların mütləq təmayüllərini məntiqin və hətta məntiqsizliyin reallığında da əsaslandırmaq imkanına malikdir).

***A küçəsi*** (bu küçənin reallığında bir təyinetmə məqamı mövcuddur və qeyd edilən mövcudluqda adi bir reallığın mövcudluğu deyil. Yəni o küçənin müəyyənləşməmiş yəqinliyinə müraciət edəndə hiss edirsən ki, həmin məkanın reallığını heç vaxt hiss edib duymaqla qurtarmaq qətiyyən olmaz).

***B küçəsi*** (qeyd edilən küçənin görüntüsündə hansısa dünyaya məxsus olan adilik məqamı mövcud deyil, yəni həmin küçənin təyinliyinin mahiyyətinə varmaq istəyəndə varlığından ötrü təyin edirsən ki, o anda qeyd edilən küçənin mahiyyəti hətta bu dünyanın ən mütləq anlayışına da məlum olmayan bir durumdadı).

***Birinci küçə*** (bu küçənin reallığını yaşayanda o yaşamda bir varolma məqamı hiss edirsən, yəni şəxsi varlığında belə bir məqam yəqinləşdirirsən ki, bu küçə qətiyyən göründüyü kimi deyil, yəni həmin anda barəsində söhbət apardığımız küçənin görünməyən tərəfi görünən tərəflərindən daha çoxdu, bu səbəbdən də bu küçənin mahiyyətini anlamaqdan ötrü gərək həmişə onun hər bir mistik olayının dünyanın ən böyük reallığı kimi yaşamaq imkanını nəzərə alasan).

***İkinci küçə*** (qeyd edilən bu anda aşkarca hiss edirsən ki, həmin mütləq anda barəsində söhbət apardığımız küçənin müəyyənliyində bir bütövlük olsa da, həmin bütövlük hərəkətsiz bir durumdadı, məhz bu duruma görə də belə qənaətə gəlirsən ki, həmin küçədə bir mühüm məqam mövcuddur, yəni bildirilən küçədə o hərəkətsizliyə görə bu kainatda nə zaman anlayışı varsa, hamısı dayanıb).

***Gənc qız*** (küçənin sol tərəfindən o bir tərəfə keçir, onun küçəni çox sərbəst bir formada keçməsində bir naməlumluq olsa da, bununla belə, o yerişdən hansı mənanın olduğunu təyin etmək mümkündü, bu mümkünlüyə görə də izah edim ki, gənc qızın gedişindəki məna bu anlamı ifadə edir: Siz bu küçənin reallığına adi bir

formada münasibət göstərməyin, bu küçə elə bir küçədir ki, burada dünyanın hansı mütləq və mükəmməl fərqliliyin desən, tapa bilərsən).

***Maşın*** (küçələrin birləşdiyi yerin tən ortasından BMV markalı bir maşın keçir, maşının rəngi qaradı, həmin rəng günəşin şüalarında cüzi də olsa, parıldayır, o rəngin parıltısından da belə nəticəyə gəlmək olar ki, əslində o parıltı ayrı bir parıltıdı, yəni günəşin şüaları o maşının rəngini parıldatmaqla hansısa cəhətini nümayiş etdirmək fikrində deyil, sadəcə olaraq o, qeyd edilən maşını parıldatmaqla həmin maşının istədiyi məkana çatmasının reallığını hərəkətə gətirir).

***A küçəsi*** (küçənin duruşundakı reallıqda bir məqamın reallığı var, həmin reallıq da irreal reallıqdı, yəni o reallığın mahiyyəti belədi ki, əslində o küçə şəhərə tərəf gedən küçədən çıxışdan ötrü yaradılmayıb, əksinə şəhərin mərkəzinə gedən əsas küçə həmişə onun reallığında olan müxtəlif fərqli dünyaların fərqliliyində olanlardan istifadə etməyə görə qeyd edilən küçəyə birləşib).

***B küçəsi*** (bu küçənin reallıq fonundakı məqamları müşahidə edəndə belə bir nəticə çıxarırsan ki, əslində onun bütün reallığı bir mütləq anlama əsaslanıb, yəni onun mövcudluq üsulu belədir: bu kainatdakı bütün zamanın və zaman anlayışlarının, zamanın müəyyənliyi məhz odur).

***Birinci küçə*** (onun görünüşündə bir müəyyənsizlik var, təəccüblü olsa da, həmin müəyyənsizlikdə bir mövcudluq məqamı var, o anda dünyanın ən dəqiq məqamı budur və dünyadan ötrü nə anlayış lazımsa, həmin anlayışlar onun varlığındadı).

***İkinci küçə*** (şəhərin mərkəzinə tərəf çıxış yolunun əsas küçəsindən onun reallığını öyrənmək istəyəndə istər-istəməz belə bir qərara gəlirsən ki, bu küçə qeyd edilən həmin anın reallığında mütləq xarakterli qeyri-səlisliyinin bu dünyadan ötrü olan məlumluğu gizlənib və həmin məlumluq da dünyanın yüksək səviyyəli məntiqliliyinin ən mükəmməl əyaniliyidi).

A küçəsi (onun reallığında olanlara müəyyənliyin mistik tərəfləri ilə nəzər yetirəndə təyin edirsən ki, mahiyyətsizliyin müxtəlif formalı xaraktersizliyi onun bütövlüyündəki heç bir reallığa aid deyil və bu aidsizlik də təyinliyi ilə naməlumluqla məlumluğun heç nədən hər reallıq yaradan mövcudluq durumunun mütləq əksidi).

***B küçəsi*** (reallığında indiki zamanın bir xüsusiliyi görsənir, yəni onun mövcudluğunda bir məxsusiləşmiş, diqqəti cəlb edən bir reallıq aniliyi var, bu da onun haqqında belə bir güman yaradır ki, həmin küçə, qeyd edilən anın reallığında olanlar mahiyyətli mütləqlik traektoriyasını yaradan xüsusiliyin xassəsidi).

***Kölgə*** (bayaqkı şəkillərə nisbətən ətrafdakı binaların günəşin şüalarının qarşısını kəsməsindən yaranan kölgə, demək olar ki, barəsində söhbət apardığımız küçələrin yarısına qədər çatıbdır, yəni əgər belə demək mümkünsə, artıq o məkandakı kölgə mütləq xarakterli bir reallıq məqamıdı, bu da o deməkdi ki, həmin anda kölgənin o məkandakı reallığı dünyada, dünyanın mövcudluq müəyyənliklərində dünya təyin etməkdədir).

Küçələrin ümumi görünüşü (həmin məkandakı küçələrin hamısını birlikdə müəyyən məsafədən müşahidə edəndə mütləq şəkildə nəticə çıxarırsan ki, barəsində söhbət açdığımız küçələrin mövcudluq durumu belə bir formadadır: indiki anda dünyanın bütün mütləq reallıqları və həmçinin mahiyyətli mövcudluq üsulları mütləq mənada o küçələrin reallığında varolma meyarı kimi təyin edilir).

